**DFF – WE Forward**

| | |
|---|---|
| **Ölkə:** | AZƏRBAYCAN |
| **Layihə №:** | 52901 |
| **Biznes sektoru:** | İnfra Avrasiya |
| **Bildiriş Növü:** | Özəl |
| **Ətraf mühit kateqoriyası:** | B |
| **Nəzərdə tutulmuş təsdiq tarixi:** | 02 avqust 2022-ci il |
| **Status:** | Konseptual Təhlildən Keçmişdir, Yekun Müzakirəsi Gözlənilir |
| **PSD açıqlanma tarixi:** | 03 avqust 2022-ci il |

## Layihənin Təsviri

Bakı yaxınlığında 5,000 tonluq tutumu olan anbarın tikintisi üçün birgə borcalan W&E Forward və Alat Bay şirkətlərinə 4,0 milyon ABŞ dollarına qədər (3,9 milyon avro) təminatlı kreditin verilməsi.

## Layihənin Məqsədləri

Layihə Gürcüstanın Qara dəniz limanları və Bakı arasında çatdırılma dəyərini və vaxtını azaltmaqla tranzit və idxal istiqamətli yüklərin mübadiləsini asanlaşdıracaq.

## Keçidin Təsiri

GKT (Gözlənilən keçid təsiri) göstəricisi: 80

DFF SME çərçivəsi ilk növbədə KOB-ların yenidən qurulmasına və daha səmərəli və ya peşəkar olmasına dəstək göstərərək "Rəqabətli" keyfiyyəti hədəfləyir. Alt layihələr ikinci dərəcəli məqsəd kimi digər keçid keyfiyyətlərindən hər hansı birini hədəfə ala bilər. Layihə KOB-u "Rəqabətli" və "İnklüziv" istiqamətlər üzrə dəstəkləyərək çərçivə hədəflərinə dəstək verir.

## Müştəriyə dair məlumat

WEST EAST FORWARD MMC

“West & East Forward” MMC (W&E Forward) Azərbaycanda yerləşən və 1993-cü ildən fəaliyyət göstərən logistika şirkətidir.

“Alat Bay Industrial Development AFEZCO” MMC (Alat Bay) 2022-ci ilin aprel ayında Layihənin həyata keçirilməsi üçün yaradılmışdır. W&E Forward və Alat Bay Layihə çərçivəsində birgə borcalan kimi çıxış edəcəklər.

**AYİB Maliyyələşdirmə Xülasəsi**

4.000.000.00 ABŞ dolları

**Layihənin Ümumi Dəyəri**

7,362,500,00 ABŞ dolları

**Ekoloji və sosial məsələlərin Xülasəsi**

B kateqoriyalı (Ekoloji və Sosial Siyasət (ESS) 2019). Bütün mövcud məlumatların, o cümlədən korporativ idarəetmə sistemlərinin nəzərdən keçirilməsinə əsaslanaraq, Bankın Ətraf Mühit və Dayanıqlılıq Departamenti tərəfindən Ətraf Mühit və Sosial Təhlil (ƏMST) aparılmışdır. Baxış mövcud obyektləri əhatə etmiş və onların qənaətbəxş vəziyyətdə olduğu və ümumilikdə Bankın Performans Tələblərinə (PT) cavab verdiyi təsdiqlənmişdir. Bütün əməliyyat obyektləri şəhər ərazisində yerləşir və hər hansı həssas reseptorlara mənfi təsir göstərmir.

Şirkətin korporativ idarəetmə sisteminin nəzərdən keçirilməsi göstərdi ki, o, yaxşı beynəlxalq təcrübəyə uyğun olaraq işlənib hazırlanmış və bütün fəaliyyəti boyu tətbiq edilmiş, yaxşı qurulmuş və inteqrasiya olunmuş Ətraf Mühit, Sağlamlıq və Təhlükəsizlik (ƏMST) idarəetmə sistemlərinə malikdir. Şirkət tərəfindən təmin edilən koordinasiya, nəzarət və monitorinq funksiyaları yeni layihələr və əməliyyat fəaliyyətləri üçün əsas ƏMST məsələlərinə yanaşma və onların idarə edilməsində ardıcıllığı təmin etməyə yönəlmişdir. Şirkət Milli və beynəlxalq ekoloji standartlara uyğun olaraq Layihəni həyata keçirmək öhdəliyini nümayiş etdirdi. Şirkətin korporativ idarəetmə sistemlərinin keyfiyyətini nəzərə alaraq, Layihə ilə bağlı ətraf mühit və sosial təsirlərin asanlıqla azaldılması və düzgün idarə olunması gözlənilir.

Ətraf Mühit və Sosial Fəaliyyət Planı (ƏMSFP) Şirkətlə Bankın PT-lərinə əməl etməyə imkan verəcək təsirlərin azaldılması tədbirlərini və təkmilləşdirmələri həll etmək üçün Şirkətlə razılaşdırılmışdır.

ƏMSFP çərçivəsində Şirkət aşağıdakı tədbirləri həyata keçirəcək:

- ISO 14001, OHSAS 18001 və müvafiq AYİB PT-lərinə uyğun olaraq layihə səviyyəsində Korporativ Ətraf Mühit, Sağlamlıq və Təhlükəsizlik (ƏMST)

idarəetmə sisteminin prinsiplərini saxlamaq və davamlı şəkildə həyata keçirmək və yeni obyektlərin istismarında iştirak edən işçilər üçün ƏMST təlim planını hazırlamaq və onun həyata keçirilməsini təmin etmək.

- Yeni qurğuların istismarına başlamazdan əvvəl bütün lazımi Ekoloji, Sanitariya, Sağlamlıq və Təhlükəsizlik (ST) və Yanğın təhlükəsizliyi icazələrinin alınması.
- Milli və AYİB-in tələblərinə uyğun olaraq mütəmadi daxili Ətraf Mühit və Yanğın, ST təftişlərinin həyata keçirilməsi və Ətraf Mühit, Sanitariya, ST və Yanğın Təhlükəsizliyi dövlət orqanlarının bildirişlərinin vaxtında və effektiv icrasının təmin edilməsi.

Şirkət ətraf mühit və sosial sahədə fəaliyyətinin yerli ictimaiyyətə açıqlanmasını öhdəsinə götürəcək və bu barədə illik əsasda Banka hesabat verəcəkdir. Bank illik Ətraf mühit və Sosial hesabatları vasitəsilə Şirkətin ətraf mühit və sosial fəaliyyətinə və ƏMSTP-lərin icrasına nəzarət edəcək.

**Texniki Əməkdaşlıq**

1. Layihənin Təhlili 80 faiz AYİB Səhmdarlarının Xüsusi Fondu (SXF) və 20 faiz Müştəri tərəfindən maliyyələşdiriləcək.
2. Hüquqi Təhlilin 80 faizi Erkən Keçid Ölkələri (EKÖ) Fondu və 20 faizi Müştəri tərəfindən maliyyələşdiriləcək.
3. Enerji və Resurs Effektivliyi üzrə araşdırmanın 90 faizi AB NIP tərəfindən maliyyələşdirilən FINTECC AB4İqlim pəncərəsi və 10 faizi Müştəri tərəfindən maliyyələşdiriləcək.
4. Logistika Sektorunda Gənc Kişi və Qadınlar üçün Bərabər İmkanlar TƏ-nin 80 faizi beynəlxalq donor və/və ya SXF və 20 faizi Müştəri tərəfindən maliyyələşdiriləcək.

Müştəri ən son dayanıqlı soyuducu texnologiyalarını təqdim edəcək və nəticədə, FINTECC EU4Climate pəncərəsi çərçivəsində Aİ NIP tərəfindən maliyyələşdiriləcək müvafiq xərclərin 17 faizinə qədər həvəsləndirici qrantdan faydalanacağı gözlənilir.

**Əlavəlilik**

Bankın əlavəliyi anbar tikintisi məqsədi ilə zəruri olan əsaslı xərclər proqramını həyata keçirmək üçün təklif olunan kreditin müddətindən və ödəniş strukturundan irəli gəlir. Yerli banklar, əsasən, şirkətin investisiya proqramlarını həyata keçirmək imkanlarını məhdudlaşdıran qısamüddətli ödəniş qrafiki ilə daha qısamüddətli kreditlər təqdim edirlər.

Müştəri enerji və iqlim auditləri, texnologiyaların minimum performans standartları, iqlimlə bağlı strategiyalar və siyasətlər, monitorinq, hesabat və yoxlama (MHY) sistemlərinin təmin edilməsi yolu ilə enerji və resurs səmərəliliyi və iqlim dayanıqlılığının maliyyələşdirilməsi üzrə AYİB təcrübəsindən istifadə edir.

Müştəri AYİB-in təcrübəsindən daha yüksək maliyyə standartları, o cümlədən maliyyə şərtləri, habelə daha yüksək inklüzivlik, gender standartları və/və ya bərabər imkanlar üzrə fəaliyyət planları vasitəsilə istifadə edir.

**Şirkətlə Əlaqə Məlumatı**

Arif Vəliyev
arif.valiyev@we-forward.com
+99412 310 02 03
+99412 310 02 03
www.we-forward.com
Bakı şəhəri, M. Cəfərov küçəsi 10, ev 188, AZ1102

Keçidin öyrənilməsi
Keçid təsirinin qiymətləndirilməsi ilə bağlı AYİB-in yanaşmasına dair əlavə məlumatları buradan əldə edə bilərsiniz.

Biznes imkanları
Biznes imkanları və ya satınalma məsələləri ilə bağlı sifarişçi şirkətlə əlaqə saxlayın.

AYİB ilə (satınalmadan sair mövzuda) biznes imkanları üçün aşağıdakı vasitələrlə əlaqə saxlayın:

Tel: +44 20 7338 7168
E-poçt: projectenquiries@ebrd.com

Dövlət sektoru layihələri ilə bağlı AYİB Satınalmalar səhifəsinə daxil olun:

Tel: +44 20 7338 6794
E-poçt: procurement@ebrd.com

Ümumi müraciətlər
Xüsusi müraciətlər AYİB Müraciət blankı vasitəsilə edilə bilər.

Ətraf Mühit və Sosial Siyasət (ƏMSS)
ƏMSS və müvafiq Fəaliyyət tələbləri (FT-lər) AYİB-in "ətraf mühitin mühafizəsi sahəsində düzgün və dayanıqlı inkişaf" strategiyasının təşviqi öhdəliyinin icra metodlarını müəyyənləşdirir. ƏMSS-yə və FT-lərə müştərilərin ictimai məlumat və məsləhət üzrə dövlət qanunlarının tətbiq olunan tələblərinə cavab vermək, eləcə də maraqlı tərəflərin, xüsusilə də müştərinin və layihənin ətraf mühit və sosial göstəricilər sahəsində narahatlıqlarını və şikayətlərini qəbul etmək və həllini sürətləndirmək üçün şikayətlərin baxılması mexanizminin müəyyən edilməsi üçün xüsusi müddəalar daxildir. AYİB əlavə olaraq layihənin ətraf mühit və sosial risklərinin və təsirlərinin xarakterinə və miqyasına uyğun olaraq müştərilərindən layihələrdə yaranan risk və təsirlər barədə müvafiq məlumatları açıqlamağı və ya maraqlı tərəflərlə hərtərəfli məsləhətləşmə aparmağı və onların düşüncələrini nəzərə alaraq onlara cavab verməyi tələb edir.

AYİB-in bu sahədə təcrübələrinə dair ətraflı məlumat ƏMSS səhifəsində verilmişdir.

Düzgünlük və Uyğunluq

AYİB-in Uyğunluq üzrə Baş direktorunun Ofisi (UBDO) yaxşı idarəetməni təşviq edir və Bankın bütün əməliyyatlarında qabaqcıl beynəlxalq təcrübələrə uyğun olaraq ən yüksək düzgünlük standartlarının tətbiqini təmin edir. Layihələrin icrası zamanı qeyri-məqbul düzgünlük və ya reputasiya ilə bağlı risklərə yol verməmək üçün Bank bütün müştərilərinin düzgünlük sahəsində hüquqi yoxlamasını aparır. Bank hesab edir ki, layihələrin qiymətləndirilməsi və təsdiqlənməsi mərhələlərində problemlərin müəyyən və həll edilməsi Bank əməliyyatlarının düzgünlüyünün təmin olunması üçün ən effektiv üsuldur. UBDO bu qabaqlayıcı tədbirlərdə mühüm rol oynayır və eləcə də investisiya qoyuluşundan sonra layihələrin düzgünlük sahəsində risklərinə nəzarətdə kömək edir.

UBDO həmçinin AYİB-in maliyyələşdirdiyi layihələrdə saxtakarlıq, korrupsiya və qeyri-məqbul davranışla bağlı iddiaların araşdırılmasına görə məsuliyyət daşıyır. Bankın daxilində və ya xaricində saxtakarlıq və ya korrupsiya halları ilə bağlı şübhəsi olan hər bir şəxs compliance@ebrd.com e-poçt ünvanı vasitəsilə Uyğunluq üzrə Baş direktora yazılı şəkildə müraciət etməlidir. Məruzə olunan bütün məsələlər UBDO tərəfindən araşdırılacaqdır. Bütün müraciətlər, o cümlədən anonim müraciətlər nəzərdən keçiriləcəkdir. Müraciətlər Bankda istifadə olunan və ya Bankın fəaliyyət göstərdiyi ölkələrin dilində edilə bilər. Məlumatlar dürüst şəkildə təqdim edilməlidir.

İnformasiya Əlçatanlığına dair Siyasət (İƏS)

İƏS AYİB-in informasiyanı açıqlama qaydasını və 1 yanvar 2020-ci il tarixindən etibarən qüvvəyə mindikdən sonra bankın strategiya, siyasət və əməliyyatları sahəsində maariflənməni və anlayışı artırmaq üçün maraqlı tərəflərlə məsləhətləşmə qaydalarını müəyyən edir. AYİB-in veb-saytında mövcud olan məlumatları əldə etmək üçün İnformasiya Əlçatanlığına dair Siyasət səhifəsinə daxil ola bilərsiniz.

İnformasiya əldə etməklə bağlı xüsusi müraciətlər AYİB Müraciət blankından istifadə etməklə göndərilə bilər.

Layihənin Müstəqil Hesabatlılıq Mexanizmi (LMHM)

Ətraf mühit, sosial və ya ictimai məlumatların açıqlanması ilə bağlı narahatlıqların Müştəri və ya Bankla həll edilməsi cəhdləri uğursuz olduğu təqdirdə (məs., Müştərinin Layihə səviyyəli şikayətlərinin baxılması mexanizmi və ya Bankın rəhbərliyinə birbaşa müraciət vasitəsilə) fiziki şəxslər və təşkilatlar onları narahat edən məsələləri AYİB-in Layihənin Müstəqil Hesabatlılıq Mexanizmi (LMHM) vasitəsilə bildirə bilərlər.

LMHM zərər verdiyi ehtimal olunan (və ya zərər vermə ehtimalı olan) Layihə məsələlərini müstəqil şəkildə nəzərdən keçirir. Bu Mexanizmin məqsədi ətraf mühit, sosial və ya ictimai məlumatların açıqlanması ilə bağlı yaranan problemlərin həlli istiqamətində Layihənin maraqlı tərəfləri arasında dialoqu dəstəkləmək, Bankın özünün Ətraf Mühit və Sosial Siyasətinə və ya İnformasiya Əlçatanlığına dair Siyasətinin Layihəyə aid müddəalarına əməl edib-etmədiyini müəyyən etmək və Bankın gələcəkdə uyğunsuzluq hallarına yol verməməsi üçün aidiyyəti üzrə bu siyasətlərə riayət olunmama hallarını aradan qaldırmaqdır.

LMHM və onun səlahiyyətləri haqqında daha ətraflı məlumat əldə etmək, Yenidən baxılması üçün müraciətin qaydalarını öyrənmək üçün Layihənin Müstəqil Hesabatlılıq

Mexanizminin veb-səhifəsinə daxil olmağınız və ya LMHM və müraciət etmək barədə təlimat və əlavə məlumat əldə etmək üçün ipam@ebrd.com e-poçt vasitəsilə LMHM ilə əlaqə saxlamağınız xahiş olunur.